# Ceyhun Bayramov ÜƏMT-nin Baş direktorunu erməni vandalizmi barədə məlumatlandırıb



**İyunun 24-də xarici işlər nazir Ceyhun Bayramov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktorunun müavini Hasan Kleybin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə əqli mülkiyyətin qorunması sahəsində beynəlxalq tərəfdaşlıq, eləcə də Azərbaycanla ÜƏMT arasındakı mövcud əməkdaşlıq əlaqələri müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında geniş əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edərək əqli mülkiyyət üzrə işlərin təkmilləşdirilməsi sahəsində ölkəmizdə həyata keçirilən fəaliyyətin bir sıra istiqamətləri barədə məlumat verib. Nazir diqqəti eyni zamanda Ermənistan tərəfindən ərazilərimizin 30 illik işğalı dövründə yer adlarımızın dəyişdirilməsi, Azərbaycana məxsus olan mədəni sərvətlərin və mədəni irs obyektlərinin Ermənistan tərəfindən talan edilməsi və ya adlarının dəyişdirilməsi, Azərbaycana məxsus digər mədəni irs nümunələrinin Ermənistan tərəfindən mənimsənilməsinə yönəldib.

Nazir eyni zamanda müqabil tərəfi postmünaqişə dövründə Azərbaycan tərəfindən aparılan intensiv yenidənqurma və bərpa prosesləri barədə məlumatlandırıb. Məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması prosesinin başlamasını qeyd edərək bu prosesə başlıca əngəl kimi Ermənistan tərəfindən basdırılmış mina təhlükəsindən danışıb.

Müqabil tərəf öz növbəsində Azərbaycanla təşkilat arasındakı mövcud əməkdaşlıqdan məmnunluğunu, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin bir sıra ölkələrin bu sahədə fəaliyyəti üçün nümunə təşkil etdiyini bildirib. O, Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa dəyərli töhfə verdiyini qeyd edib.

Hasan Kleyb eyni zamanda əqli mülkiyyət sahəsində təhsil istiqamətində Azərbaycanla təşkilat arasında əməkdaşlıq potensialının mövcud olduğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan. - 2023.- 25 iyun.- S.3.